**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**“NAXÇIVAN” UNİVERSİTETİ**
**FƏNN SİLLABUSU**

Təsdiq edirəm: ___________ N.M.Məmmədova

Tarix: __07__ sentyabr 2022

| | | |
|---|---|---|
| **Fənnin təsviri** | **Fənn (adı, krediti)** | Müasir Azərbaycan dili 5 kredit |
| | **Fakültə** | Xarici dillər |
| | **İxtisas** | XDM |
| | **Səviyyə (bakalavriat, magistratura)** | Bakalavriat |
| | **Kurs** | II |
| | **Semestr** | III |
| | **Təlimçi** | Arifə Əziz qızı Zeynalova |
| | **e-mail** | arifezeynalova9@gmail.com |
| | **Telefon** | 050-543-59-75 |
| | **Dərs günləri və saatları** | I gün I saat (m) |
| **Tədris dili** | Azərbaycan dili | |
| **Baza/ Seçmə** | Baza | |
| **Tələb olunan dərsliklər və dərs materialları** | 1.H.Əliyev “Dövlət dilinin təkmilləşdirilməsi haqqında, Bakı 2001<br>2.A.Qurbanov “ Müasir Azıərbaycan dili”, I cild Bakı 2003<br>3. Ə.Dəmirçizadə “Müasir Azərbaycan dili” I cild Bakı 1982<br>4. S.Cəfərov “Müasir Azərbaycan dili” II cild Bakı 1982<br>5.Ə .Z.Abdullayev və başqaları “Müasir Azərbaycan dili “ IV hissə Bakı 1985<br>6.S.Cəfərov “ Azərbaycan dilində söz yaradıcılığı, Bakı 1960<br>7.Azərbaycan dilinin qrammatikası S.H I, II, III hissələr, Bakı, 1960<br>8. Müasir Azərbaycan dili. IV cilddə. Bakı, 2007<br>9 .Azərbaycan dilindən təcrübi məşğələlər, APU nəşri, Bakı, 1973<br>10.B.Xəlilov “Müasir Azərbaycan dilinin morfologiyası”, Bakı, 2000 | |
| **İstifadə ediləcək web səhifələr** | 1. http://lib.bbu.edu.az/files/book/1057.pdf<br>2.https://www.repk.az/uploads/books/24.pdf<br>3.http://anl.az/el/Kitab/2017/07/cd/Azf-296978.pdf | |
| **Fənnin xülasəsi** | “Müasir Azərbaycan dili” fənni filologiya fakültələrində tədris olunur və bu fənn tələbələrə Azərbaycan dilinin lüğət tərkibini, sözlərin leksik-semantik mənalarını, dilin lüğət fondunu və s. haqqındakı nəzəri biliklərin mənimsədilməsinə xidmət edir. | |
| **Fənnin məqsədləri** | “Müasir Azərbaycan dili” fənninin məqsədi tələbələrdə Azərbaycan dilinin, Azərbaycan sözlərinin, Azərbaycan frazeologiyasının leksik xüsusiyyətlərini, bunlar haqqında ilkin nəzəri biliyin formalaşmasına kömək etməkdir. “Müasir Azərbaycan dili” fənni tələbələrin sonradan bir sıra nəzəri, habelə müəyyən praktik fənlərin tədrisi zamanı rast gələ biləcəkləri müddəaları, nəzəri fikirləri, terminləri və s. daha effektiv qavramaları və yadda saxlamaları üçün ümumi baza yaradır. | |
| **Öyrənmə nəticələri** | Dərslikdə müasir Azərbaycan dilinin leksikologiya, semasiologiya, etimologiya, onomalogiya, frazeologiya, leksikoqrafiya, sözyaradıcılığı şöbələri və onların öyrəndiyi məsələlər öz əksini tapır. Dərslikdən ali məktəblərin tələbələri, müəllimləri, magistrləri, elmi işçiləri, orta məktəb müəllimləri faydalana bilərlər. | |
| **Tədris metodları** | **Mühazirə** | Fənnə aid ümumi xarakterli məlumatlar verilir. |
| | **Qrup müzakirəsi** | Tələbələrə fərdi mövzuda təqdimatlar verilir və müzakirəsi aparılır. |
| | **Təcrübi məşğələ** | Yeni mövzu əyani vəsaitlərin (PPT və video |

| | | |
|---|---|---|
| | | fayllar) nümayişi ilə izah edilir. |
| | **Simulyasiya** | Aralıq və yekun imtahan zamanı tələbələrin mənimsənilmə səviyyəsi yoxlanılır və təhlil edilir |
| | **Layihə** | Tələbələrə dərsə aid fərdi laborator işləri verilir və simulyasiya proqramlarından istifadə edilərək nəticələr qeyd edilir |
| | **Digər** | Tədris prosesində fərdiləşdirilmiş (oyunlar üçün materiallar, testlər) və vizual (slaydlar, sxemlər, qrafiklər, şəkillər, sənəd nümunələri) materiallar kimi təlim metodlarından istifadə edilir |
| **Qiymətləndirmə** | **Mövzunun mənimsənilməsi** | **Faiz nisbəti (%) və ya bal** |
| | Balların maksimum miqdarı | 100 bal |
| | 1. Semestr ərzində toplanmış maksimum bal | 50 bal (50%) |
| | - Dərsə davamiyyətə görə maksimum bal | 10 bal (10%) |
| | - Tələbələrin sərbəst işinə görə maksimum bal | 10 bal (10%) |
| | - Seminar və laboratoriya dərslərinin nəticələrinə görə maksimum bal | 30 bal (30%) |
| | **Qeyd: seminar dərslərində tələbənin jurnalda ən azı 3 (üç qiyməti olduğu halda, ona tədrisin bu növü üzrə ballar hesablanır. Əks təqdirdə tələbəyə bal hesablanmır.** | |
| | 2. İmtahan nəticələrinə görə maksimum bal | 50 bal (50%) |
| | 3. Fənnin mənimsənilməsi qaydası: semestr ərzində imtahan nəticəsinə görə toplanan balların cəmi 50-dən yuxarı olan tələbələr fənni mənimsəmiş hesab edilir.<br>- 51 baldan aşağı – “qeyri kafi” – F<br>- 51 – 60 - “qənaətbəxş” – E<br>- 61 – 70 – “kafi” – D<br>- 71 – 80 – “yaxşı” – C<br>- 81 – 90 – “çox yaxşı” – B<br>- 91 – 100 – “əla” | |
| | **Cəmi:** | **100 bal (100%)** |
| **Qiymətləndirmə metodları** | **Tapşırıqlar:** Tapşırıq olaraq tələbələrə aşağıda qeyd olunmuş sərbəst mövzular verilir və semestr ərzində qiymətləndirilir.<br>**Sərbəst iş mövzuları:**<br>1. Orfoepiya və tələffüz qaydaları<br>2.Vurğu. Həyəcanlı vurğu<br>3.Nitq səsləri və onların əmələ gəlməsi<br>4. Orfoqrafiya. Yeni orfoqrafik qaydaları<br>5.Müasir Azərbaycan danışıq dili və onun xüsusiyyətləri<br>6. Durğu və onun Azərbaycan dilində işlənmə məqamları<br>7.Saitlərin əsas xüsusiyyətləri<br>8.Azərbaycan ədəbi dil, fonetik hadisə və qanunlar<br>9. Azərbaycan ədəbi dilinin norma və üslubları<br>10. Orfoqrafik və onun tarixi<br>11.Azərbaycan dilinin üslubları<br>12.Azərbaycan ədəbi dilin inkişaf mərhələləri<br>13.Əlifbanın tarixi<br>14. Yazıda söz hissəsinin sətrdən sətrə keçirilməsi | |

| | |
|---|---|
| | 15.Azərbaycan ədəbi dili və onun dövrləşməsi<br>16.Fonetikanın növləri<br>17.Danışıq üzvlərinin səsin yaranmasındakı iştirakına görə bölgüsü<br>18.Vurğu və intonasiya<br>19.Səs tellərinin vəziyyətinə görə samitlərin bölgüsü, samit səslər, onların təsnifi prinsipləri<br>20.Danışıq üzvləri və onun xüsusiyyətləri<br>21.Heca və onun növləri, tipləri<br>22.Azərbaycan dilindəki fonetik hadisə və qanunlar<br>23.Fonem<br>24.Müasir Azərbaycan ədəbi dilinin formaları<br>25. Nitq səsləri və onların əmələ gəlməsi<br><br>**Təqdimat:** Slayd formasında hazırlanaraq sunulan təqdimatlar "GÖRÜRƏM, EŞİDİRƏM VƏ YADDA SAXLAYIRAM" prinsipinə əsasən qiymətləndirilir. |
| **Qaydalar** | **Davamiyyət:** Fənn üzrə ayrılmış bütün saatların 25%-dən çoxunda iştirak etməyən tələbə imtahana buraxılmır.<br>**Buraxılmış imtahan və ya tapşırıqlar:** Tələbə planlaşdırılan təqdimatda və ya imtahanda iştirak edə bilməyəcəyi təqdirdə əvvəlcədən məlumat verməlidir. Tam sinif iştirakı və təyin olunmuş ev tapşırığını yerinə yetirilməsi gərəklidir.<br>Tədqiqat işlərində, hazırlanmış layihələrdə istifadə olunan mənbələrə istinad verilməlidir. Bununla birlikdə, tələbə tərəfindən təhlil edilmədən, yalnız istinad və sitatlardan ibarət olan hər hansı bir tədqiqat işi qəbul edilə bilməz.<br>Testlər zamanı köçürmə, təyin edilmiş qaydalara tabe olunmadığı təqdirdə tələbə imtahan nəticəsinin ləğv olunmağı ehtimalı daxil olmaqla cəzalandırılacaqdır.<br>Təqdimatların / layihə sənədlərinin mövzuları fənni tədris edən müəllim tərəfindən əvvəlcədən müəyyənləşdiriləcəkdir. Müəllim ilə əvvəlcədən razılaşdırıldığı təqdirdə digər tələbələrlə əməkdaşlığa icazə verilə bilər. |

**Tematik plan**

**Mühazirə**

| Həftə | Tarix | Mövzular | Dərslik / Tapşırıq / Ədəbiyyat |
|---|---|---|---|
| **1** | 19.09.22 | Mövzu №1<br>Azərbaycan ədəbi dili haqqında ümumi məlumat. Fonetika. Səs və hərf. Sait və samit səslər<br>**Qısa icmalı**:<br>Azərbaycan dili haqqında qısa məlumat. Azərbaycan ədəbi dilinin formalaşdığı, inkişaf etdiyi və zənginləşdiyi dövr. Azərbaycan ədəbi dilinin milli ədəbi dil kimi formalaşması. Həmçinin Azərbaycan dilinin mənşəyi, yayılma coğrafiyası və Azərbaycan dili haqqında görkəmli şəxsiyyətlərin fikirləri. Azərbaycan dilinin türk dilləri ailəsində yeri, mövqeyi və bu dilin quruluşu, xüsusiyyətləri. Türk dillərinin oğuz qrupunda Azərbaycan dilinin işlənmə yeri, mövqeyi, fonetik xüsusiyyətlər, leksik, qrammatik xüsusiyyətləri.<br>Müasir dilin fonetik sisteminin tədqiqində bir sıra üsullardan istifadə olunur: a) müşahidə üsulu, b) | 1. A.Qurbanov " Müasir Azərbaycan dili", I cild Bakı 2003 səh. 10-11<br>2. B.Xəlilov. Müasir Azərbaycan dili. Bakı, 2009, səh. 3-16 |

| | | | |
|---|---|---|---|
| | | təcrübi üsul. a) Müşahidə üsulu. Fonemin necə səslənməsini subyektin özünü bilavasitə müşahidə etməsi ,eyni zamanda, subyektiv üsul və onun yolları. Belə iş aparılarkən şəxs eşitmək və hiss etməklə bu və ya digər hadisəni şərhi. Dildəki səslərin ayrılıqda deyil, sözlər tərkibində tələffüz olunması, müəyyən səsin bu və ya digər səsə keçməsi Təcrübi üsul. Danışıq səslərinin müxtəlif cihazlarla, aparatlarla tədqiq olunması. | |
| **2** | 26.09.22 | Mövzu №2<br>Heca, vurğu və onun növləri<br>**Qısa icmalı:**<br>Nitqin fonetik parçaları (fonetik ibarə, fonetik qitə, heca). Heca haqqında ümumi məlumat.<br>Tərkibinə görə hecanın növləri: saf heca, qovuşuq heca (örtüsüz-qapalı, örtülü-qapalı, örtülü-açıq).Qovuşuq hecaların samitlərin sayından və mövqeyindən asılı olaraq tipləri.<br>Heca tiplərində samitlər: a) küylü heca (*tap, sap, fi-kir*), b) sonorlu heca (*lə-man, li-mon*), c) küylü-sonorlu heca (*fi-kir, ta-rix*) və s.<br>Heca tiplərində saitlər: a) qalın saitli hecalar, b) incə saitli hecalar.<br>Müasir Azərbaycan ədəbi dilində vurğu. Vurğunun növləri. Heca vurğusu. Məntiqi vurgu. Həyəcanlı vurğu. Sərbəst vurğu. Sabit vurğu. Vurğu qəbul etməyən şəkilçilər. | A.Qurbanov " Müasir Azərbaycan dili", I cild Bakı 2003 Səh. 108-116 |
| **3** | 03.10.22 | Mövzu №3<br>Fonetik hadisə və qanunlar<br>**Qısa icmalı:** Fonetik hadisələrin dilin səs qabığında Azərbaycan dilinin təbiəti ilə bağlı baş verən ötəri, keçici hallar olması.<br>I. **Uyuşma (assimilyasiya).** Bir səsin başqa bir səs təsir edərək onu müxtəlif cəhətdən özünə uyğunlaşdırması. Uyuşmanın növləri: 1. Səslərin formalaşmasında **fəal iştirak edən üzvlərin vəziyyətinə** görə: a) səs tellərinin vəziyyətinə görə, b) dilin vəziyyitinə görə, b) damaq pərdəsinin vəziyyətinə görə. 2. **Davamlılığa görə:** a)təsadüfi uyuşma, b) daimi uyuşma. 3. **Keyfiyyətə görə:** a) tam uyuşma, b) natamam uyuşma. 4.İstiqamə görə: a) irəli uyuşma, b) geri uyuşma.<br>II. **Səs fərqləşməsi (dissimilyasiya).** Bir səsin başqa bir səsə təsir edərək onu oz həmcinsindən uzaqlaşdırması *(qararmaq - qaralmaq, sararmaq – saralmaq, hammal – hambal, fontan – fontal).* Yanaşı və uzaq | A.Qurbanov " Müasir Azərbaycan dili", I cild Bakı 2003 Səh. 93-103 |

| | | | |
|---|---|---|---|
| | | samitlərdə baş verə bilən dissimilyasiya, tam və natamam dissimilyasiya.<br>III. **Səsartımı (proteza).** Bu hadisənin dilimizin fonetik təbiətinə görə baş verməsi. Formaları: 1) Samitartımı: a) yazıda sabitləşən samitartımı b) yazıda samitləşməyən samitartımı. 2) Saitartımı: Söz başında: a) yanaşı samitlər.<br>**IV.Səsdüşümü (eleziya).** Formaları: 1) yazıda sabitləşən: a) *sinif – sinfi, oğul – oğlum.*<br>**V.Yerdəyişmə (metateza).** Daha çox adi tələffüzdə və dialektlərdə özünü göstərməsi *(məşhur [məhşur], yanlış [yalnış], yeknəsəq [yeksənəq], göstərmək [görsətmək] və s.)* Azərbaycan dilində r samitinin söz və heca başında işlənməməsi səbəbindən baş verən metateza *(doğra [dorğa], qeyrət [qıryət], süfrə [sürfə], igrənmək [irgənmək]* və s.) | |
| **4** | 10.10.22 | **Mövzu;4.** Yazı, əlifba. Orfoqrafiya<br>**Qısa icmalı:**<br>Yazının əmələ gəlməsi. Azərbaycan yazısı yazı haqqında ümumi məlumat. Yazının tipləri və inkişafı.<br>Şəkli (piktoqrafik) yazı. 2. Fikri (ideoqrafik) yazı. 3. Heca (silloqrafik) yazısı. 4. Səs (fonoqrafik) yazısı. Azərbaycan yazısının tarixindən. | A.Qurbanov “ Müasir Azərbaycan dili”, I cild Bakı 2003 Səh. 135-194 |
| **5** | 17.10.22 | **Mövzu №5**<br>Leksikologiya. Semasiologiya<br>**Qısa icmalı:**<br>Leksikologiyanın məqsəd və vəzifələri. Leksikologiyanın növləri. Söz-səslənmə və mənanın tam forması kimi. Azərbaycan sözlərinin struktur əlamətləri. Semasiologiya və onun obyekti. Söz və məfhum. Sözün mahiyyəti və onun mənası. Sözün leksik məna növləri. Leksik və qrammatik həqiqi və məcazi mənaları. Semantik söz qrupları. | A.Qurbanov “ Müasir Azərbaycan dili”, I cild Bakı 2003 Səh. 202-219, 314-367 |
| **6** | 24.10.22 | **Mövzu № 6**<br>Leksikoqrafiya. Dervetologiya<br>**Qısa icmalı: Söz yaradıcılığı. Fonetik, leksik, morfoloji, sintaktik yolla söz yaradıcılığı.**<br>Dervetoloji təhlil. | A.Qurbanov “ Müasir Azərbaycan dili”, I cild Bakı 2003 Səh. 400-447 |

| | | | |
|---|---|---|---|
| **7** | 31.10.22 | **Mövzu №7**<br>Onomologiya. Antroponim. Toponimlər<br>**Qısa icmalı:**<br>Onomalogiya haqqında ümumi məlumat. Onomastik vahidlərin linqvistik xüsusiyyətləri. Onomalogiyanın növləri (Tarixi, təsviri, müqayisəli). Onomalogiyanın digər elm sahələri ilə əlaqəsi.<br>Onomologiyanın obyekti, məqsəd və vəzifələri. Onomalogiya Azərbaycan dilçiliyinin gənc sahəsi kimi. Azərbaycan dilçilərinin onomalogiya sahəsindəki xidmətləri. Müasir Azərbaycan dilçiliyində onomalogiya problemlərinin tədqiqi və vəzifələri. Azərbaycan dilindəki antroponimik kateqoriyaların təsnifi: Əsas və köməkçi adlar. Antroponimlərin növləri:<br>a) Adi-real antroponimlər<br>b) Qeyri-adi bədii antroponimlər: əfsanəvi və uydurma adlar.<br>Toponimlərin mənşəcə təsnifi.. Ərəb, fars dillərinə mənsub olan toponimlər. Azərbaycan dilinə mənsub olan toponimlər. Qafqaz dillərinə mənsub olan toponimlər. Toponimlərin etimologiyası. Mifotoponimlər. Makrotoponimlər. | A.Qurbanov “ Müasir Azərbaycan dili”, I cild Bakı 2003 Səh. 281-311 |
| **8** | 07.11.22 | **Mövzu №8**<br>Qrammatika. Morfologiya. İsim<br>**Qısa icmalı:**<br>Qrammatikanın tədqiqat obyekti. Dilin qrammatik quruluşu. Morfologiya, onun tədqiq etdiyi sahə. Söz anlayışı. Söz və leksem. Sözlərin morfoloji tərkibi. Kök morfem, şəkilçi morfem. İsimlərin mənaca və quruluşca növləri. İsmə aid qrammatik kateqoriyalar: ümumi və xüsusi kateqoriyalar. | 1. B.Xəlilov “ Müasir Azərbaycan dilinin morfologiyası”, Bakı, 2000 səh. 3-55 |

| | | | |
|---|---|---|---|
| **9** | 14.11.22 | **Mövzu №9**<br>Sifət, say, zərf, əvəzlik<br>**Qısa icmalı:**<br>Sifətin məna qrupları. Sifətin quruluşu. Sifətin dərəcələri. Sifətin say və zərfə oxşar xüsusiyyətləri. Sifətin substantivləşməsi. Sayın məna və quruluşca növləri. Miqdar və sıra sayları. Sıra saylarının substantivləşməsi. Zərf düzəltmə yolları; leksik qrammatik, morfoloji və sintaktik yollar. Zərfin məna növləri. Tərzi-hərəkət zərfi, zaman zərfi, yer zərfləri, kəmiyyət zərfləri. Əvəzlik adlar qrupuna daxil olan sözləri ümumi halda əvəz edən bir nitq hissəsi kimi. əvəzliyin ismə, sifətə, saya, zərfə münasibət məsələsi.<br>Əvəzliyin məna növləri. Şəxs əvəzlikləri. Şəxs əvəzliklərinin hallanması, isimlərdən fərqli cəhətləri. | B.Xəlilov “ Müasir Azərbaycan dilinin morfologiyası”, Bakı, 2000 səh. 138-148 |
| **10** | 21.11.22 | **Mövzu №10**<br>Fel. Felin qrammatik əlamətləri, məna növləri<br>**Qısa icmalı:**<br>Feil iş, hərəkət bildirən bir nitq hissəsi kimi. Feilin lüğəvi məna qrupları. Feilin qrammatik səciyyəsi, kateqoriyaları. | B.Xəlilov “ Müasir Azərbaycan dilinin morfologiyası”, Bakı, 2000 səh. 138-148 |
| **11** | 28.11.22 | **Mövzu №11**<br>Feilin təsriflənən və təsriflənməyən formaları<br>**Qısa icmalı:**<br>Əmr şəkli, xəbər şəkli, arzu şəkli, vacib şəkli, şərt şəkli. Feli sifət. Qrammatik mənası, şəkilçiləri. Feli sifətdə feil xüsusiyyətləri. Feli sifətdə sifət xüsusiyyətləri. | B.Xəlilov “Müasir Azərbaycan dilinin morfologiyası”, Bakı, 2000 səh. 144-146 |
| **12** | 05.12.22 | **Mövzu №12**<br>Köməkçi nitq hissələri<br>**Qısa icmalı:**<br>Sabit və qeyri-sabit, şəkilçiləşmiş qoşmalar. Qoşmalar və hallar. Qoşmalarla idarə. Bağlayıcıların quruluşu. Sintaktik vəziyyətə görə bağlayıcıların növləri: tabesizlik və tabelilik bağlayıcıları. Ədatların inkişafı meyli. Ədatların məna bölgüsü. Ədatların quruluşu. Modal sözlər. Modallıq kateqoriyası və modal sözlər. Modal sözlərin məna qrupları. Modal sözlərin işlənmə yeri. | B.Xəlilov “Müasir Azərbaycan dilinin morfologiyası”, Bakı, 2000 səh.144-147 |

| | | | |
|---|---|---|---|
| **13** | 12.12.22 | **Mövzu №13**<br>Sintaksis, söz birləşmələri, cümlə və onun növləri<br>**Qısa icmalı:**<br>Sintaksisin tədqiqat obyekti. Sintaksisin digər dilçilik şöbələri ilə əlaqəsi. Sintaktik vahidlər: söz birləşməsi, cümlə. Söz birləşmələrində və cümlələrdə, sözlər arasındakı sintaktik əlaqələr. Sintaktik əlaqələrin növləri: tabesizlik və tabelilik əlaqələri. Tabesizlik anlayışı. Tabesizlik əlaqəsi və onun işlənmə yeri. Tabelilik anlayışı. Tabelilik əlaqəsi və onun işlənmə yeri. | Müasir Azərbaycan dili. IV cilddə. Bakı, 2007, səh. 5-45 |
| **14** | 19.12.22 | **Mövzu №14.**<br>Sadə cümlə, onun növləri. Mürəkkəb cümlə və onun növləri.<br>**Qısa icmalı:**<br>Təktərkibli cümlələr. Cüttərkibli cümlələr. Üzvlənməyən cümlələr. Təktərkibli cümlələrdə baş üzv. Təktərkibli cümlənin növləri: şəxssiz, qeyri müəyyən şəxsli, ümumi şəxsli, adlıq cümlələr. Tabesiz mürəkkəb cümlənin komponentlərini əlaqələndirən vasitələr: məna əlaqələri, bağlayıcılar, intonasiya, komponentlərin sırası. Tabesiz mürəkkəb cümlələrdə məna əlaqələri. | Müasir Azərbaycan dili. IV cilddə. Bakı, 2007 səh. 104-114, 268-293 |
| **15** | 26.12.22 | **Mövzu №15**<br>Tabeli və tabesiz mürəkkəb cümlələr.<br>**Qısa icmalı:**<br>Baş və budaq cümlə. Mürəkkəb cümlənin təsnifi prinsipləri. Tabeli mürəkkəb cümlənin budaq cümlələrə görə təsnifi: mübtəda budaq cümləsi, xəbər budaq cümləsi, tamamlıq budaq cümləsi təyin budaq cümləsi, zərflik budaq cümlələri. | Müasir Azərbaycan dili. IV cilddə. Bakı, 2007, səh. 296-400 |
| | | **Cəmi: 30 saat** | |

**Fənn müəllimi:** **dos. A.Ə.Zeynalova**